**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

**BAKALAVRİATURA SƏVİYYƏSİ ÜÇÜN**

**İXTİSAS – 050101 "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ"**

**İPF-B 10 - "MÜASİR AZƏRBAYCAN DİLİ"**

**fənni üzrə**

# PROQRAM

**Bakı – 2017**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVRİATURA SƏVİYYƏSİ ÜÇÜN**

**İXTİSAS: 050101 - "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ"**

**İPF-B 10 - "MÜASİR AZƏRBAYCAN DİLİ"**

**fənni üzrə**

# PROQRAM

**Bakı – 2017**

**Tərtib edənlər:**
**Abdullayeva Sənubər Əlövsət qızı - Azərbaycan dilçiliyi kafedrasının professoru, filologiya elmləri doktoru**
**Şahbazova Zemfira Əsgər qızı - Azərbaycan dilçiliyi kafedrasının professoru, filologiya elmləri doktoru**
**Məmmədov İsmayıl Teymur oğlu - Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**
**Həbibli Reyhan Yusif qızı – Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**

**Rəy verənlər:**
**Əlizadə Fikrət Firuz oğlu – Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru**
**Həsənova Sevinc Məhəmməd qızı – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Ədəbiyyat və dillər kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru**

**İXTİSAS – 050101 "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ
FƏNN – İPF-B 10 "MÜASİR AZƏRBAYCAN DİLİ"
FONETİKA
(I kurs)**

## İZAHAT VƏRƏQİ

"Müasir Azərbaycan dili" fənninin "Fonetika" bölməsi "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası alan tələbələrə I kursda 60 saat (30 saat mühazirə, 30 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm məcburi sərbəst işi də böyük əhəmiyyətə malikdir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – tələbələri müasir Azərbaycan ədəbi dilinin fonetik quruluşu haqqında elmin müasir vəziyyəti ilə tanış etmək, onlara fonetika və orfoepiya barədə ali məktəb proqramının müəyyən etdiyi həcmdə biliklər vermək, gələcək mütəxəssislərdə Azərbaycan dilinin fonetik vasitələrinin düzgün tətbiqi vərdişlərini formalaşdırmaq və inkişaf etdirmək, tələbələrə dilin orfoepik və aksentoloji normalarını, tələffüz xüsusiyyətlərini ardıcıl və hərtərəfli öyrətmək, müxtəlif kommunikativ məqsədlərlə istifadə olunan müxtəlifsəviyyəli funksional vahidlər sistemi kimi müasir Azərbaycan dilinin fonetik quruluşunu nəzərdən keçirməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə fonetikanın əsas anlayışları, terminləri və konsepsiyaları haqqında təsəvvür formalaşdırmaq;
2. Tələbələrdə dilin fonetik səviyyəsinin öyrənilməsinin əhəmiyyətini izah etmək;
3. Tələbələrdə Azərbaycan ədəbi dilinin fonetik sistemi haqqında tam təsəvvür yaratmaq;
4. Tələbələri dilin orfoepik və aksentoloji normaları ilə tanış etmək, onlardan istifadə etmək vərdişlərini inkişaf etdirmək;
5. Tələbələrdə fonetik təhlil, habelə orfoepik və aksentoloji norma pozuntularının aşkar edilməsi və düzəldilməsi vərdişlərini təkmilləşdirmək;
6. Tələbələrdə orfoepik lüğətlərlə və vurğu lüğətləri ilə işləmək vərdişlərini inkişaf etdirmək.

## Fənnin tədris prosesində yeri

Müasir Azərbaycan ədəbi dilinin fonetikası Azərbaycan dilçiliyinin ənənəvi şöbəsidir. İPF-B 10 - "Müasir Azərbaycan dili" fənninin dilin səs sistemini, səs vasitələri və onların funksiyalarını, nitqin müxtəlif tələffüz üslublarının xüsusiyyətlərini öyrənən "Fonetika" bölməsi mütəxəssislərin ümumi peşə hazırlığı üzrə fənlər silsiləsini təşkil edən nəzəri fənlərdən biridir. Bu kursa müasir Azərbaycan dilinin səs tərkibinin və dilimizdəki sözlərin fonem strukturunun öyrənilməsi, səs və qrafik vasitələrin qarşılıqlı münasibətinin nəzərdən keçirilməsi, heca strukturlarının, prosodiyanın, habelə nitq axınındakı fonetik proseslərin ətraflı təsviri daxildir. Onun əsas məzmunu (səs vahidlərinin təsnifi, fonoloji sistemin parametrləri və s.) zaman keçdikcə əhəmiyyətli dərəcədə dəyişikliyə uğramamışdır. Bununla bərabər, XXI əsrin fonetikasının öz spesifikası vardır. Birincisi, müasir fonetistlər materialı Azərbaycan dilinin fonetik səviyyədə

təzahür edən determinant (tipoloji) xüsusiyyətlərini nəzərə almaqla ifadə edirlər; ikincisi, fonetik materialın müasir şərhlərində funksional yanaşma özünü ardıcıl şəkildə göstərir.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- müasir dilin fonetikasının baza anlayışları və konsepsiyalarını;
- mütəxəssisin praktik hazırlığının əsasını təşkil edən fonetik nəzəriyyənin başlıca müddəalarını;
- fonetik tədqiqatın əsas metodlarını;
- baza terminologiyasını;
- nitq səslərinin xarakteristikasını və transkripsiyanı;
- hecaların tiplərini, vurğuların növlərini və hecaya ayırmaq qaydalarını;

**Bacarmalıdır:**

- əsas fonetik prosesləri təhlil etməyi;
- səsin, söz birləşməsinin, sintaqmın, hökmün, mətnin fonetik təhlilini aparmağı;
- qazanılmış nəzəri və praktik bilikləri ünsiyyət prosesində tətbiq etməyi;
- elmi ədəbiyyatla işləməyi, müasir audio-, video- və multimediya vasitələrindən istifadə etməyi.

**Yiyələnməlidir:**

- tələffüz vərdişlərinə və müxtəlif situasiyalarda onları həyata keçirmək bacarığına;
- fənnin anlayış və kateqorial aparatına, tədris-metodiki və elmi ədəbiyyatla işləmək vərdişlərinə;
- müxtəlif tipli informasiyanın müstəqil şəkildə axtarışı, işlənib hazırlanması və istifadəsi vərdişlərinə.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1. | Fonetikanın ümumi məsələləri | 8 | 4 | 4 |
| 2. | Fonologiya və fonem anlayışı | 4 | 2 | 2 |
| 3. | Azərbaycan dilinin saitlər sistemi | 4 | 2 | 2 |
| 4. | Azərbaycan dilinin samitlər sistemi | 8 | 4 | 4 |
| 5. | Fonetik hadisələr və qanunlar | 8 | 4 | 4 |
| 6. | Heca | 4 | 2 | 2 |
| 7. | Vurğu | 4 | 2 | 2 |
| 8. | İntonasiya | 4 | 2 | 2 |
| 9. | Azərbaycan dilinin orfoepiyası | 8 | 4 | 4 |
| 10. | Azərbaycan dilinin orfoqrafiyası | 8 | 4 | 4 |
| **Cəmi:** | | 60 | 30 | 30 |

## Mövzular və onların məzmunu

### 1. Fonetikanın ümumi məsələləri

Fonetika səs sistemini öyrənən dilçilik şöbəsi kimi. Fonetikanın vəzifəsi, obyekti, predmeti. Fonetik tədqiqatın aspektləri. Fonetikanın növləri. Fonetikada tətbiq olunan metodlar və cihazlar. Fonetikanın başqa elm sahələri ilə əlaqəsi. Onun əhəmiyyəti. Səsin akustik xüsusiyyətləri. Danışıq üzvləri. [1], [2], [7], [12]

### 2. Fonologiya və fonem anlayışı

Fonem haqqında alimlərin fikirləri. Fonemi müəyyənləşdirmək üsulları. Fonem müstəqilliyi. Fonem variativliyi. Fonem ardıcıllığı. [1], [2], [12]

**3. Azərbaycan dilinin saitlər sistemi**

Səslərin növləri. Saitlər və onların təsnifi. Saitlərin xarakteristikası. Saitlər sisteminin qanunauyğunluqları. [1], [7], [8], [9]

**4. Azərbaycan dilinin samitlər sistemi**

Samitlərin təsnif prinsipləri. Azərbaycan dili samitlərinin ümumi cəhətləri. Fonem tərkibinin təsnifində binar prinsip. [1], [2], [10], [12]

**5. Fonetik hadisələr və qanunlar**

Fonetik hadisələr və əvəzlənmələr. Novlaşma hadisəsi. Karlaşma. Ahəng qanunu. Cingiltiləşmə. Uyuşma və onun növləri. Fərqləşmə. Səsartımı. Səsdüşümü. Yerdəyişmə. [1],[ 7], [8], [10]

**6. Heca**

Azərbaycan dilində hecanın növləri. Heca modelləri. [1], [2], [9]

**7. Vurğu**

Vurğu haqda fikirlərin xülasəsi. Vurğunun xüsusiyyətləri. Vurğunun müxtəlif dil vahidlərində yeri. [1], [5], [7], [13]

**8. İntonasiya**

İntonasiyanın tərkib hissələri. Onun tipləri. Cümlədə intonasiya. [1], [2], [12]

**9. Azərbaycan dilinin orfoepiyası**

Orfoepik norma. Orfoepiya və orfofoniya. Orfoepik xüsusiyyətlər. Tələffüz üslubları: tam üslub və sərbəst üslub. Orfoepiya və orfoqrafiya arasındakı fərqli cəhətlər. Orfoepik qaydalar. [1], [9], [10], [15]

**10. Azərbaycan dilinin orfoqrafiyası**

Orfoqrafiyanın xüsusiyyətləri. Azərbaycan dili orfoqrafiyasının prinsipləri: fonetik prinsip. Morfoloji

prinsip və onun mahiyyəti. Tarixi-ənənəvi prinsip. Fonetik transkripsiya. [1], [8],[ 9], [14]

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirələr, praktik məşğələlər, kollokviumlar, tələbələrin sərbəst işləri. Bundan başqa, aşağıdakı interaktiv formaların və tədris texnologiyalarının tətbiqi məqsədəuyğundur: portfolio – kursun problematikası üzrə materialların toplanılması və qiymətləndirilməsi üçün; şifahi ünsiyyətdə işlənmə prinsipinin mənimsənilməsi və məqsədəuyğun istifadə üçün vərdişlərin formalaşdırılması məqsədilə konkret fonetik vasitələrin fonoloji analizi; informasiya texnologiyaları – müxtəlif tətbiqi məsələlərin həlli üçün.

## Tədris resursları

Tədris avadanlığı və əyani vəsaitlər

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Fonetika bir elm kimi. Fonetika və fonologiya
2. Azərbaycan dilinin fonetik sistemi. Səs və fonem
3. Nitq aparatının quruluşu və fəaliyyəti. Nitq səslərinin akustik xüsusiyyətləri
4. Sait və samit fonemlərin tərkibi və sistemi. Nitq axınında saitlər və samitlər
5. Heca. Müasir Azərbaycan dilində heca növləri və modelləri
6. Fonetik hadisələr. Ahəng qanunu

7. Vurğu və onun növləri
8. Müasir fonetik sistemdə intonasiya konstruksiyaları
9. Azərbaycan dili orfoqrafiyasının prinsipləri. Fonetik transkripsiya
10. Orfoepiya. Tələffüz üslubları

## Tövsiyə edilən ədəbiyyat

**Əsas**


1. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. I hissə. Fonetika, Orfoepiya, Orfoqrafiya. (III nəşr). Bakı, "Şərq-Qərb", 2007, 256 s.
2. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, "Maarif", 1984, 388 s.

**Əlavə**

3. Axundov A.A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, "Maarif", 1973, 302 s.
4. Azərbaycan dilçiliyi müntəxəbatı. 3 cilddə. Bakı, "Abis Alarko", 2013; I c. 309 s.; II c.438 s.; III c.521 s.
5. Cəlilov F.A. Azərbaycan dilinin səs quruluşu. Bakı, ADU nəşri, 1983.
6. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı, "Maarif", 1988, 285 s.
7. Həsənov H.Ə. Azərbaycan dilinin fonetikası. Bakı, "Təfəkkür", 2004, 306 s.
8. Xəlilov B.Ə. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya (dərslik). Bakı, "Bakı Çap Evi", 2013, 310 s.
9. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə. I c. Bakı, "Nurlan", 2003, 450 s.

10. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. 4 hissədə. I hissə. Bakı, "Nurlan", 2005, 352 s.
11. Müasir Azərbaycan dili. 3 clddə. I c. Bakı, "Elm", 1978, 322 s.; "Çıraq", 2010, 351 s.
12. Veysəlli F.Y. Azərbaycan dilinin funksional qrammatikası: fonemika və morfemika. I cild. Bakı, "Prestige Çap Evi", 2014, 530 s.
13. Yadigar F. Fonetika və fonologiya məsələləri. Bakı, "Maarif", 1993, 192 s.
14. Yusifov M.İ. Azərbaycan dili fonetikasının əsasları. Bakı, "Elm və təhsil", 2012, 318 s.

**Soraq ədəbiyyatı**

15. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Şərq-Qərb", 2013, 840 s.
16. Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı, "Elm", 1983, 141 s.

**İnternet resursları**

https: //az.wikipedia.org
kayzen.az/blog/Azərbaycan-dili/...fonetika.htm...
kursak.net
nedir.az/fonetika
referat.ilkaddimlar.com
rusgram.narod.ru/1-32.html
www.langust.ru
www.mtk.az
www.textologia.ru

## İXTİSAS – 050101 "AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ
## FƏNN – İPF-B 10 "MÜASİR AZƏRBAYCAN DİLİ"
## LEKSİKOLOGİYA
## (II kurs)

## İZAHAT VƏRƏQİ

İPF-B 10 – "Müasir Azərbaycan dili" fənninin "Leksikologiya" bölməsi "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası alan tələbələrə II kursda 45 saat (30 saat mühazirə, 15 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm məcburi sərbəst işi də böyük əhəmiyyətə malikdir. Auditoriyadankənar işə kurs işinin yazılması da daxildir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi** – Dilin əsas vahidi kimi söz haqqında semasioloji, onomasioloji və sosiolinqvistik aspektlərdə təsəvvür yaratmaq, tələbələri müasir Azərbaycan ədəbi dilinin leksik quruluşu haqqında elmin müasir vəziyyəti ilə tanış etmək, onlara leksika barədə ali məktəb proqramının müəyyən etdiyi həcmdə biliklər vermək, leksik vahidlərin əsas xarakteristikalarının hərtərəfli təhlilini vermək, gələcək mütəxəssislərdə Azərbaycan dilinin leksik vasitələrinin düzgün tətbiqi vərdişlərini formalaşdırmaq və inkişaf etdirmək, tələbələrə dilin leksik normalarını, leksik xüsusiyyətlərini ardıcıl və hərtərəfli öyrətmək, müxtəlif kommunikativ məqsədlərlə istifadə olunan müxtəlifsəviyyəli funksional vahidlər sistemi kimi

müasir Azərbaycan dilinin leksik quruluşunu, leksik vahidləri linqvokulturoloji aspektdə (milli və mədəni əhəmiyyətə malik informasiya daşıyıcıları kimi) nəzərdən keçirmək, bədii əsərlərin ideyasının açılmasında, onalrın stilistikasında, milli özünəməxsusluğun formalaşmasında leksikanın rolunu göstərməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə leksikologiyanın əsas anlayışları, terminləri və konsepsiyaları haqqında təsəvvür formalaşdırmaq;
2. Tələbələrə dilin leksik səviyyəsinin öyrənilməsinin əhəmiyyətini izah etmək;
3. Tələbələrdə Azərbaycan ədəbi dilinin leksik sistemi haqqında tam təsəvvür yaratmaq;
4. Tələbələri dilin leksik normaları ilə tanış etmək, onlardan istifadə etmək vərdişlərini inkişaf etdirmək;
5. Tələbələrdə leksik norma pozuntularının aşkar edilməsi və düzəldilməsi, habelə leksik təhlil vərdişlərini təkmilləşdirmək;
6. Tələbələrdə izahlı lüğətlərlə və omonimlər, sinonimlər, antonimlər lüğətləri ilə işləmək vərdişlərini inkişaf etdirmək.

## Fənnin tədris prosesində yeri

Müasir Azərbaycan ədəbi dilinin leksikologiyası Azərbaycan dilçiliyinin ənənəvi şöbəsidir. İPF-B 10 – "Müasir Azərbaycan dili" fənninin dilin leksik sistemini, leksik vasitələri və onların funksiyalarını öyrənən "Leksikologiya" bölməsi mütəxəssislərin ümumi peşə hazırlığı üzrə fənlər silsiləsini təşkil edən nəzəri fənlərdən biridir. Bu fənni

öyrənmək üçün tələbə dilçiliyin əsas termin və anlayışlarını və onun daxili stratifikasiyasını bilməlidir.

Bu kursda leksik sistemin əsas vahidi kimi söz, dildə əsas nominasiya üsulları, leksik vahidlərin semantikası öyrənilir, dilin leksik sistemində semantik qruplaşmalar, sözün məna strukturunun tarixən dəyişkənliyi nəzərdən keçirilir. Fənnin öyrənilməsi tələbələrin orta məktəbdə Azərbaycan dili dərslərində aldığı bilikərə əsaslanır. Həmin fənnin öyrənilməsindən əldə edilən biliklər "Müasir Azərbaycan dili" (Morfologiya), "Üslubiyyat", "Azərbaycan ədəbi dili tarixi" və s. fənlərin tədrisi zamanı istifadə oluna bilər. Bu da bütövlükdə əsas dil üzrə baza peşə biliklərini almaqda tələbəyə kömək edəcək.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- müasir Azərbaycan dili leksikologiyasının baza anlayışları və konsepsiyalarını;
- mütəxəssisin praktik hazırlığının əsasını təşkil edən leksik nəzəriyyənin başlıca müddəalarını;
- leksikanın sistem xarakterini;
- müasir Azərbaycan dilinin leksik sisteminin əsas xüsusiyyətlərini;
- baza terminologiyasını, terminoloji vasitələri;
- leksikoloji tədqiqatların əsas metodlarını;
- leksik vahidlərin sintaqmatik və paradiqmatik keyfiyyətlərinin qarşılıqlı əlaqəsini;
- leksikada baş verən prosesləri;
- lüğətlərin əsas tiplərini və lüğətlərdə söz və frazeologizmlərin təsviri prinsiplərini.

**Bacarmalıdır:**

- Azərbaycan dili leksik tərkibinin sistemli təşkili haqqında təsəvvürə malik olmağı;

- dildə leksikanın işlənmə xüsusiyyətlərini aydınlaşdırmağı;
- leksikada sintaqmatik və paradiqmatik münasibətləri müəyyən etməyi və səciyyələndirməyi;
- əsas leksik prosesləri, sözlərin sistem əlaqələrini, müxtəlif tipli sözlərin semantik variantlaşması üsullarını təhlil etməyi;
- elmi ədəbiyyatla işləməyi, müasir audio-, video- və multimediya vasitələrindən, biblioqrafik mənbələrdən və müasir axtarış sistemlərindən istifadə etməyi;
- elmi diskussiyalarda iştirak etməyi;
- müxtəlif tipli mətnləri yaratmağı (annotasiya, şərh, elmi mənbələrin xülasəsi, referat, bədii əsər mətninin müstəqil təhlili);
- müasir Azərbaycan dili üzrə aldığı nəzəri və praktik bilikləri elmi-tədqiqat, tədris və digər fəaliyyət növlərində, ünsiyyət prosesində tətbiq etməyi.

**Yiyələnməlidir:**

- leksik vahidlərin semantikasının əsas təhlil metodlarına, dil hadisələrinin sistemləşdirilməsi və interpretasiyası üsullarına, leksemin semantikasının təhlil metodikalarına;
- fənnin anlayış və kateqorial aparatına, tədris-metodiki və elmi ədəbiyyatla işləmək vərdişlərinə;
- müxtəlif tipli informasiyanın müstəqil şəkildə axtarışı, işlənib hazırlanması və istifadəsi vərdişlərinə;
- Azərbaycan dili ilə bağlı sahələrdə praktik və tədqiqat işlərinin əsas metodları və üsullarına;

– əldə olunan biliklərin peşə vəzifələrinin həlli zamanı tətbiqinə.

**Mövzular üzrə saatların bölgüsü**

| № | Mövzular | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Mühazirə | seminar |
| 1. | Leksikologiya, predmeti, məqsəd və vəzifələri | 2 | 2 | - |
| 2. | Söz leksik vahid kimi | 2 | 2 | - |
| 3. | Sözün mənaca inkişafı.Çoxmənalılıq | 2 | 2 | - |
| 4. | Omonimlik | 2 | 2 | - |
| 5. | Sinonimlik | 2 | 2 | - |
| 6. | Antonimlik | 2 | 2 | - |
| 7. | Azərbaycan dilinin mənşəcə lüğət tərkibi | 2 | 2 | - |
| 8. | Müasir Azərbaycan dilinin aktiv və passivliyinə görə lüğət tərkibi | 2 | 2 | - |
| 9. | Müasir Azərbaycan dilinin istifadə dairəsinə görə leksikası | 2 | 2 | - |
| 10. | Müasir Azərbaycan dilinin üslubca leksikası | 2 | 2 | - |
| 11. | Azərbaycan dilinin onomastik leksikası | 2 | 2 | - |
| 12. | Frazeologiya | 2 | 2 | - |
| 13. | Leksikoqrafiya | 2 | 2 | - |

| | | | | |
|---|---|---|---|---|
| 14. | Etimologiya | 2 | 2 | - |
| 15. | Söz yaradıcılığı | 2 | 2 | - |
| 16. | Leksikologiyanın predmeti. Söz leksik vahid kimi | 2 | - | 2 |
| 17. | Sözün mənaca inkişafı. Çoxmənalılıq. Omonimlik. | 2 | - | 2 |
| 18. | Sinonimlik. Antonimlik | 2 | - | 2 |
| 19. | Azərbaycan dilinin mənşəcə, aktiv və passivliyinə görə lüğət tərkibi | 2 | - | 2 |
| 20. | Müasir Azərbaycan dilinin istifadə dairəsinə və üslubca leksikası | 2 | - | 2 |
| 21. | Azərbaycan dilinin onomastik leksikası. Frazeologiya | 2 | - | 2 |
| 22. | Leksikoqrafiya. Etimologiya | 2 | - | 2 |
| 23. | Söz yaradıcılığı | 2 | - | 2 |
| **Cəmi:** | | 45 | 30 | 15 |

## Mövzular və onların məzmunu

### 1. Leksikologiya, predmeti, məqsəd və vəzifələri

Leksikologiya haqqında. Dilin leksik sistemi və onun əsas xüsusiyyətləri. Lüğət tərkibi. Leksikologiyanın

öyrəndiyi əsas məsələlər. Leksikologiyanın növləri. [1], [8], [9], [11], [15]

**2. Söz leksik vahid kimi**

Söz dilin əsas vahididir. Onun xüsusiyyətləri və mahiyyəti. Məna üçbucağı. Sözün dil sistemində mövqeyi. Sözdə forma və məzmun. Onomasiologiya ümumi nominasiya nəzəriyyəsi kimi. Semasiologiya və sözün mənası. Leksik məna və onun tipləri. [14], [15], [19]

**3. Sözün mənaca inkişafı. Çoxmənalılıq**

Mənanın sistemliliyi. Paradiqmatika və sintaqmatika. Məna dəyişmələri. Çoxmənalılıq hadisəsi, mahiyyəti, səbəbləri. Əsas və əlavə məna, həqiqi və məcazi məna anlayışı. Məna genişlənməsi, daralması, köçürülməsi. [1], [14], [15], [19]

**4. Omonimlik**

Dilçilikdə omonimiya problemi. Omonimlərin paradiqmatik-sintaqmatik münasibətlər üzrə müəyyənləşdirilməsi. Çoxmənalılıq və omonimliyin qarşılıqlı münasibəti. Omonimlərin növləri. Omonimlərin yaranma səbəbləri. Çoxmənalı sözlərin və omonimlərin fərqləndirilməsi. [1], [8], [9], [11], [16]

**5. Sinonimlik**

Sinonimlik linqvistik kateqoriya kimi. Bu hadisə ilə bağlı fikirlərin xülasəsi. Sinonimlərin xarakteristikası və növləri. Leksik sinonimlikdə məna yaxınlığı məsələsi. Müxtəlif nitq hissələrinin sinonimliyi. Qrammatik sinonimliyin mahiyyəti. Onu müəyyənləşdirən əsas cəhətlər. Sinonimlik və həmhüdud dil hadisələri. Sinonimlik cərgə. Dominant anlayışı. [1], [8], [9]

**6. Antonimlik**

Antonimiyanın tərifi, qarşılaşdırma. Antonimiya və sinonimiya. Konversivlər haqqında məlumat. Antonimliyin polisemiya ilə əlaqəsi. Antonimlik münasibətində olan üslubi fiqurlar. Enantiosemiyanın mahiyyəti. [1], [8], [9]

**7. Azərbaycan dilinin mənşəcə lüğət tərkibi**

Dilin leksikasının inkişafına təsir edən amillər. Azərbaycan dilinin lüğət tərkibində ümumtürk sözlərinin yeri və onların fonetik xüsusiyyətləri. Xalis Azərbaycan sözlərinin xüsusiyyətləri. Dillər arasında söz mübadiləsi. Sözalma prosesinin səbəbləri, yolları və üsulları. «Alınma söz» anlayışı. «Alınma»lar və «əcnəbi sözlər». Dünya dillərində alınmaların növləri. Alınmaların regionlar üzrə təsnifi. Alınmalar və internasionalizmlər. Ekzotizmlər. Azərbaycan dilindəki alınma sözlərin mənbələri. Ekvivalentsiz leksika. Leksik lakunlar [1], [5], [11], [15], [18]

**8. Müasir Azərbaycan dilinin aktiv və passivliyinə görə lüğət tərkibi**

Dilin lüğət tərkibindəki dəyişikliklər. Sözlərin köhnəlməsinin səbəbləri. Lüğət tərkibində köhnəlmə – yeniləşmə hərəkatının əsas cəhətləri. Tarixizmlər və arxaizmlər. Arxaizmlərin növləri. Neologiya və neologizmlər. Linqvistik və üslubi neologizmlər. [1], [8], [15], [16]

**9. Müasir Azərbaycan dilinin istifadə dairəsinə görə leksikası**

Ümumişlək sözlər dilin lüğət tərkibinin əsas hissəsi kimi. Dialekt sözlərinin leksik və üslubi xüsusiyyətləri. Dialektizmlərin növləri. Termin anlayışı. Ümumişlək sözlərlə terminlər arasında fərqli cəhətlər. Terminologiya. Terminlərin əhəmiyyəti. Terminlərin yaranma mənbələri. Alınma terminlərin xüsusiyyətləri. «Beynəlmiləl termin»

anlayışı. Terminyaratma üsulları. Sosiolekt, idiolekt, arqo və jarqon (slenq) anlayışı. Jarqonun növləri. Peşə-sənət leksikası ictimai dialektologiyanın tədqiqat sahəsi kimi. [1], [11], [15], [17]

**10. Müasir Azərbaycan dilinin üslubca leksikası**

Ədəbi dil anlayışı və onun əlamətləri. Danışıq dilinin xüsusiyyətləri. Dialekt, jarqon danışığı, loru danışıq. Funksional üslubların növləri. Üslublararası leksika. Şifahi leksika. Yazılı nitqin növləri. [1], [8], [11], [15]

**11. Azərbaycan dilinin onomastik leksikası**

Onomastika xüsusi adları öyrənən dilçilik sahəsi kimi. Onomastikanın növləri. Xüsusi ad leksik kateqoriyadır. Antroponimik kateqoriyalar. Toponimika və toponimlərin növləri. Digər onomastik kateqoriyalar haqqında. [8], [11], [12]

**12. Frazeologiya**

Frazeologiya və frazeologizmlər. Sözlərlə frazeologizmlər arasında ümumi və fərqli cəhətlər. Atalar sözü və məsəllər, rəvayətlər frazeologiyanı zənginləşdirən mənbə kimi. Frazeoloji vahidlərin növləri. İsmi və feili frazeoloji vahidlər. Frazeoloji birləşmələrin çoxmənalılığı, omonim, sinonim, antonimliyi. Mənşəyinə görə frazeoloji vahidlərin qrupları [1], [3], [11], [15]

**13. Leksikoqrafiya**

Leksikoqrafiya və onun inkişaf istiqamətləri. Lüğətin strukturu. Lüğətlərin tipləri və növləri. Lüğətdə materialın verilmə üsulları. Türk dillərinin lüğətçilik tarixi [1], [7], [9], [11]

**14. Etimologiya**

Etimologiya elminin tarixi. Etimoloji tədqiqatların prinsipləri və əsas çətinliklər. Elmi etimologiya və xalq etimologiyası. Bədii üslubda xalq etimologiyasının öz əksini tapması. [19]

**15. Söz yaradıcılığı**

Söz yaradıcılığı prosesi. Söz yaradıcılığı və morfologiya. Dilin lüğət tərkibinin inkişaf mərhələləri. Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsinin mənbə və üsulları. Yeni sözlərin yaranması. Azərbaycan dili şivələrində söz yaradıcılığı. Sözlərin semantik inkişafı. Fonetik tərkibin dəyişməsi ilə söz artımı. Lüğət tərkibinin alınmalar hesabına zənginləşməsi. Onomastik sistemdə gedən inkişaf. Kalka yolu ilə yeni sözlərin yaranması. Düzəltmə və mürəkkəb sözlərin sadələşməsi hesabına söz artımı. Sözün tərkibi. Kök və əsas anlayışları. Kök və şəkilçi. Şəkilçilərin xüsusiyyətləri. Ad düzəldən şəkilçilər. Feil düzəldən şəkilçilər. Zərf düzəldən şəkilçilər. [1], [6], [8], [9], [11], [15]

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

“Müasir Azərbaycan dili” - Leksikologiya kursunun mənimsənilməsi həm ənənəvi, həm də innovativ tədris texnologiyalarından istifadəni nəzərdə tutur. Ənənəvi tədris texnologiyaları dedikdə, tədris prosesində mühazirə, praktik məşğələr, seminarlar və s. kimi iş metodlarından istifadə başa düşülür.

Bu kursda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirələr, praktik məşğələlər, tələbələrin sərbəst işləri, kollokviumlar və kurs işi. Bundan başqa, aşağıdakı interaktiv formaların və tədris texnologiyalarının tətbiqi məqsədəuyğundur: portfolio – kursun problematikası

üzrə materialların toplanılması və qiymətləndirilməsi üçün; informasiya texnologiyaları – müxtəlif tətbiqi məsələlərin həlli üçün.

## Tədris resursları

Tədris avadanlığı və əyani vəsaitlər

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Leksikologiyanın növləri. Sözün leksik vahid kimi xarakteristikası
2. Çoxmənalılıq (polisemiya). Omonimiya. Sinonimiya. Antonimiya
3. Dilin lüğət tərkibi. Dilin mənşəcə leksikası
4. Aktiv və passiv leksika
5. Ümumişlək, xüsusi (peşə leksikası, terminlər), loru, dialekt, jarqon leksikası
6. Azərbaycan dili leksikasının üslubi diferensiasiyası
7. Onomastik leksika
8. Frazeologizmlərin struktur-semantik tipləri
9. Lüğətlərin əsas tipləri və növləri
10. Söz yaradıcılığı dilçiliyin xüsusi bölməsi kimi

## Tövsiyə edilən ədəbiyyat

**Əsas**

**1.** Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə. Leksika. (III nəşr). "Şərq-Qərb", Bakı, 2007, 192 s.

**Əlavə**

2. Azərbaycan dilçiliyi müntəxəbatı. 3 cilddə. Bakı, “Abis Alarko” çap evi, 2013; I c.309 s.; II c.438 s.; III c.521 s.
3. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının nəzəri əsasları. Bakı, “Maarif”, 1978, 176 s.
4. Bayramov İ.M. Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları. Bakı, ADPU nəşr., 1999.
5. Bayramova A. Leksik alınmaların dilin zənginləşməsində rolu. Bakı, “Nurlan”, 2009, 156 s.
6. Cəfərov S.Ə. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, ADU nəşr., 1960, 202 s.
7. Həsənov H.Ə. Azərbaycan lüğətçiliyinin nəzəri əsasları. Bakı, Bakı Universiteti nəşr., 1999, 336 s.
8. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı, “Nurlan”, 2005, 452 s.
9. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, “Nurlan”, 2008, 444 s.
10. Qasımova R.A. Azərbaycan dilində leksik normalaşma. Bakı, “Elm və təhsil”, 2010, 144 s.
11. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. 2 cilddə. I c. Bakı, “Nurlan”, 2003, 450 s.
12. Qurbanov A.M. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. Bakı, “Nurlan”, 2004; I c. 340 s.; II c. 504 s.
13. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. 4 hissədə. II h. Bakı, “Nurlan”, 2005, 368 s.
14. Məmmədov İ.T. Azərbaycan dilinin semantikası. Bakı, “Xəzər”, 2006, 372 s.

15. Müasir Azərbaycan dili. 3 clddə. I c., Bakı, “Elm”, 1978, 322 s.; „Çıraq“, 2010, 351 s.
16. Müasir Azərbaycan dilinin leksikası (metodik vəsait). Tərtib edən: Y.Ə.Məmmədli. Bakı, BDU nəşr., 2000, 20 s.
17. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, “Elm”, 2002, 230 s.
18. Tahirov İ.M. Dialekt leksikasında alınma sözlər. Bakı, “Nurlan”, 2004, 136 s.
19. Verdiyeva Z.N., Ağayeva F.M., Adilov M.İ. Azərbaycan dilinin semasiologiyası. Bakı, “Maarif”, 1979, 306 s.

**Soraq ədəbiyyatı**

20. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, “Şərq-Qərb”, 2006; I c., 744 s.; II c., 792 s.; III c., 672 s.; IV c., 712 s.
21. Azərbaycan dilinin omonimlər lüğəti.Bakı, “Şərq-Qərb”, 2012, 168 s.
22. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2012, 424 s.
23. Azərbaycan dilinin antonimlər lüğəti.Bakı, “Şərq-Qərb”, 2012, 144 s.

**İnternet resursları**

dic.academic.ru
https: //az.wikipedia.org
https://azerdict.com/az/izahli...
gramma.ru
kayzen.az/tag/leksikologiya
nedir.az
www.fonetix.ru
www.share.az

## İXTİSAS – 050101 “AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ FƏNN – İPF-B 10 “MÜASİR AZƏRBAYCAN DİLİ” MORFOLOGİYA (II kurs) İZAHAT VƏRƏQİ

“Müasir Azərbaycan dili (Morfologiya)” fənni “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisası alan tələbələrə II kursda 75 saat (45 saat mühazirə, 30 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm məcburi sərbəst işi də xüsusi yer tutur.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

**Kursun məqsədi**

- orta məktəbdə alınmış bilikləri dərinləşdirmək və daha da möhkəmlətmək;
- Azərbaycan dilçiliyinin son nailiyyətləri nəzərə alınmaqla sözün tərkibi, morfem anlayışı, kök və şəkilçi morfemlər, nitq hissələri, onların təsnifi prinsipləri, qrammatik xüsusiyyətləri, mühüm morfoloji kateqoriyaları, feillərin təsrif sistemi və s. məsələləri tələbələrə öyrətmək;
- dilin morfoloji quruluşu, qrammatik məna və qrammatik forma anlayışlarını elmi məntiqlə tələbələrə mənimsətmək;
- yalnız ali məktəb dərslik və dərs vəsaitlərindən istifadə etməklə mövzuları tələbələrin bilik səviyyəsinə uyğun izah etmək;

- dilçilik metodlarından və müasir informasiya texnologiyalarından istifadə etməklə dil faktlarının toplanılması və sistemli təhlili vərdişlərinə yiyələnmək;
- dilin morfoloji quruluşunun digər səviyyələrlə əlaqəsini göstərmək;
- nitq hissələrinin hər birinin əsas qrammatik xüsusiyyətlərini mənimsətmək.

**Kursun vəzifələri:**

7. Azərbaycan dili morfologiyasının öyrənilməsi prosesində peşəkar pedaqoji və metodik oriyentasiya vərdişlərini təkmilləşdirmək;
8. tələbələrdə dil və kommunikativ səriştəliliyi formalaşdırmaq;
9. tələbələrdə dilçilik dünyagörüşünü formalaşdırmaq;
10. müxtəlif dil normaları əsasında tələbələrin nitq mədəniyyətini yüksəltmək.

**Fənnin tədris prosesində yeri**

"Müasir Azərbaycan dili" fənninin "Morfologiya" bölməsi II kursda, IV semestrdə tədris olunur. Bu kurs çərçivəsində Azərbaycan dilindəki sözlərin qrammatik-semantik xüsusiyyətlərinin öyrənilməsinin nəzəri-metodoloji problemləri öyrədilir. Kurs dilimizdəki sözlərin (leksemlərin) sözdəyişmə paradiqmasının aktual məsələlərindən, söz haqqında qrammatik təlim kimi Azərbaycan dili morfologiyasının nəzəri əsaslarından bəhs edir. Habelə nitq hissələri nəzəriyyəsinin əsas müddəaları və Azərbaycan dilinin morfoloji quruluşu tələbələrə elmi-metodiki aspektdə öyrədilir.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

– Azərbaycan dili sözləri və söz-formalarının semantik-qrammatik xüsusiyyətlərini;

- sözlərin qrammatik məna və qrammatik formalarının vəhdətini;
- morfoloji kateqoriyalar və onların təsnif prinsiplərini;
- nitq hissələri sistemi, ayrı-ayrı nitq hissəsi çərçivəsində morfoloji kateqoriyaların öyrənilməsi;
- nitq hissələrinin təsnifi prinsiplərini (leksik, morfoloji, sintaktik);
- ümumi və xüsusi qrammatik kateqoriyalar bölgüsünün tənqidi mənzərəsi.

**Bacarmalıdır:**

- əsas nitq hissələrini mahiyyətcə fərqləndirməyi;
- sözün aid olduğu nitq hissəsini (morfoloji və sintaktik baxımdan) səciyyələndirməyi;
- nitq hissələrinin ənənəvi təsnifatını;
- ayrı-ayrı nitq hissəsi daxilindəki morfoloji kateqoriyaları təhlil etməyi;
- əsas və köməkçi nitq hissələrini bir-birindən ayıran cəhətləri sadalamağı.

**Yiyələnməlidir:**

- kompüter məlumat bazalarında informasiya axtarışı vərdişlərinə;
- Azərbaycan dili sözlərinin morfoloji təhlili üçün xüsusi məlumat bazalarını hazırlama bacarığına;
- müəyyən cümlənin və ya bütöv mətnin komponenti kimi sözü (söz-formanı) morfoloji təhlil etmə vərdişlərinə;
- müxtəlif nitq hissələrinə aid sözlərin morfoloji təhlil vərdişlərinə;
- ayrı-ayrı dil faktları və hadisələrinə şüurlu münasibətə.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1. | Morfologiya fənninin predmeti və tədqiqat obyekti | 4 | 2 | 2 |
| 2. | Morfem anlayısı. Sözün morfem tərkibi | 4 | 2 | 2 |
| 3. | Nitq hissələri problemi. Nitq hissələrinin təsnifi prinsipləri. Əsas və köməkçi sözlər | 4 | 2 | 2 |
| 4. | İsim. Qrammatik xüsusiyyətləri. Quruluş və mənaca növləri | 4 | 2 | 2 |
| 5. | İsmin qrammatik kateqoriyaları. Mənsubiyyət, kəmiyyət, şəxs-xəbərlik kateqoriyası | 2 | 2 | |
| 6. | İsmin hal kateqoriyası. | 4 | 2 | 2 |
| 7. | Sifət. Qrammatik xususiyyətləri. Quruluş və məna növləri | 2 | 2 | |
| 8. | Sifətin dərəcələri | 4 | 2 | 2 |
| 9. | Say. Qrammatik xususiyyətləri. Sayın məna növləri | 4 | 2 | 2 |
| 10 | Əvəzlik. Qrammatik | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | xüsusiyyətləri. Əvəzliyin məna növləri | | | |
| 11 | Feil. Qrammatik xususiyyətləri. Quruluş və mənaca növləri | 4 | 2 | 2 |
| 12 | Feilin qrammatik kateqoriyaları | 2 | 2 | |
| 13 | Feilin növ kateqoriyası | 4 | 2 | 2 |
| 14 | Feilin şəkilləri | 2 | 2 | |
| 15 | Feilin təsriflənməyən formaları | 4 | 2 | 2 |
| 16 | Zərf. Qrammatik xususiyyətləri | 2 | 2 | |
| 17 | Zərfin mənaca növləri | 4 | 2 | 2 |
| 18 | Köməkçi nitq hissələri | 2 | 2 | |
| 19 | Qoşma | 4 | 2 | 2 |
| 20 | Bağlayıcı | 2 | 2 | |
| 21 | Ədat | 2 | 2 | |
| 22 | Modal sözlər | 4 | 2 | 2 |
| 23 | Xüsusi nitq hissələri (yamsılama və nida) | 3 | 1 | 2 |
| **Cəmi:** | | 75 | 45 | 30 |

## Mövzular və onların məzmunu

**1. "Müasir Azərbaycan dili (Morfologiya)" fənninin predmeti və tədqiqat obyekti.** Azərbaycan dilçiliyində qrammatika və qrammatik quruluş haqqında fikirlər. Qrammatikanın bölmələri: morfologiya və sintaksis. Morfologiya ilə sintaksisin qarşılıqlı əlaqəsi. Qrammatika sözlərin dəyişməsini və birləşməsini öyrənən bir elm kimi. Qrammatika və onun bölmələrinə müxtəlif münasibətlər.

Morfologiyanın tədqiqat obyekti, predmeti. Morfologiya sözlərin paradiqmalar üzrə dəyişməsini və qrammatik mənasını öyrənən elm kimi. Morfologiyaya aid ən mühüm tədqiqat əsərlərinin qısa elmi xülasəsi.

Qrammatik kateqoriya forma və mənanın vəhdəti kimi. Azərbaycan dilçiliyində qrammatik kateqoriyalara dair fikirlər. [1 ]; [2 ]; [3 ]; [4 ].

**2. Morfem anlayışı.** Sözün morfem tərkibi: kök morfemlər və şəkilçi morfemlər, onların xüsusiyyətləri. Söz köklərinin semantik müstəqilliyi, fonetik tərkibcə sabitliyi.

Şəkilçi morfemlərin məna və funksiyaya görə növləri: sözdüzəldici və sözdəyişdirici şəkilçilər.

Sözdüzəldici şəkilçilər. Onların yeni məna yaratma və məhsuldarlığına görə növləri.

Sözdəyişdirici şəkilçilər. Sözdəyişdirici şəkilçilər qrammatik mənanın əlaməti kimi. Sözdəyişdirici şəkilçilərdə variantlılıq. Sözdüzəldici şəkilçilərlə sözdəyişdirici şəkilçilər arasında omonimlik, sinonimlik və antonimlik halları. [1]; [2 ]; [3]; [4 ].

**3. Nitq hissələri** problemi. Nitq hissələri sözlərin leksik-qrammatik qrupları kimi. Nitq hissələrinin təsnifində leksik, morfoloji və sintaktik prinsiplər. Hər prinsipin elmi mahiyyəti.

Əsas nitq hissələrinin müəyyənləşdirilməsində meyarlar: leksik-semantik mənaya, morfoloji əlamətə, sintaktik vəzifəyə malik olması. Nitq hissəsi və cumlə üzvü.

**Əsas nitq hissələri**. İsim, sifət, say, əvəzlik, feil, zərf. Onların ümumi qrammatik əlamətləri. Əsas nitq hissələrinin adlar və feil qrupuna bölünmə ənənəsi.

**Köməkçi nitq hissələri**, onları bir qrupda birləşdirən əlamətlər. Köməkçi nitq hissələrinin tərkibi: qoşma, bağlayıcı, ədat, modal sözlər. [1 ]; [2 ]; [3]; [4 ].

**4. İsim.** İsmi digər nitq hissələrindən fərqləndirən əsas leksik-qrammatik əlamət. İsmin semantik qrupları: ümumi, xüsusi; konkret, mücərrəd; tək, toplu isimlər. İsmin quruluşca növləri: sadə, düzəltmə, mürəkkəb isimlər. [1 ]; [2 ]; [3].

**5. İsmin əsas qrammatik kateqoriyaları.**

İsmin kəmiyyət kateqoriyası. Kəmiyyət kateqoriyasının əsas morfoloji əlaməti vəkəmiyyət anlayışının başqa ifadə vasitələri. Mənsubiyyət kateqoriyasinin əsas morfoloji əlaməti və məna vəzifələri. İsimlərdə şəxs-xəbərlik kateqoriyası. Bu kateqoriyanın sintaktik funksiyası [1]; [2]; [3]; [4 ].

**6. İsmin hal kateqoriyası.** Qrammatik və məkani hallar. Hal kateqoriyası ilə bağlı bəzi mübahisəli məsələlər. Hal kateqoriyasının semantik səciyyəsi. halların sintaktik funksiyaları, idarə əlaqəsi və hallanma. Substantivləşmə [1]; [2]; [3]; [4 ].

**7. Sifət.** Sifət əşyanın əlamət və keyfiyyətini bildirən nitq hissəsi kimi. Sifətin məna qrupları – rəng, dad, həcm, zahiri əlamət və s. bildirməsi.

Sifətin quruluşca növləri. Düzəltmə və mürəkkəb sifətlərin morfoloji modelləri [1 ]; [2 ]; [3 ]; [4 ].

**8. Sifətin dərəcələri.** Sifətin müqayisə dərəcələri, onların təsnifi. Azaltma və çoxaltma dərəcəsinin morfoloji və sintaktik yolla ifadəsi.

Sifətin say və zərflə oxşar cəhətləri. Başqa nitq hissələrinin sifətləşməsi.

Sifətin substantivləşməsi, daimi və müvəqqəti substantivləşmə.

Sifətin sintaktik funksiyası. Morfoloji və sintaktik əlamətləri [1]; [2]; [3]; [4 ].

**9. Say.** Sayların quruluşu. Sadə və mürəkkəb say məsələsi. Onluq say sistemi. Sayların sıralanmasında sabitlik. Miqdar saylarının söz yaradıcılığında iştirakı. Sayla isimlərin əlaqə formaları: birbaşa əlaqə, numerativ sözlər vasitəsilə əlaqə. Sayların sintaktik funksiyası [1 ]; [3 ]; [2 ]; [4 ].

**10. Əvəzlik.** Əvəzlik və onun dilin qrammatik quruluşunda yeri. Əvəzliyin ismə, sifətə, saya, zərfə münasibəti. Əvəzliyin quruluşca növləri. Əvəzliyin məna növlərinin təsnifatında fikir müxtəlifliyi. Şəxs əvəzliklərində şəxs və çoxluq mənasının ifadəsi. Hallanan və hallanmayan işarə əvəzlikləri. Təyin əvəzliyi, onun işlənmə xüsusiyyətləri. Nisbi, inkar və qayıdış əvəzliklərinə münasibət. [1 ]; [3 ]; [2 ]; [4 ].

**11. Feil.** Feil iş, hərəkət, hal-vəziyyət bildirən bir nitq hissəsi kimi. Feilin leksik-semantik qrupları. Feilin quruluşca növləri və mürəkkəb feil məsələsi. [1 ]; [3 ]; [2 ]; [4 ].

**12. Feilin qrammatik kateqoriyaları.** Feilin inkarlıq kateqoriyası. İnkarlığın morfoloji və sintaktik yolla ifadəsi. Feilin təsirlilik kateqoriyası. Təsirli və təsirsiz feillər. Azərbaycan dilindəki təsirli və təsirsiz feillər haqındakı fikirlərin xülasəsi. Təsirsiz feillərdən təsirli və təsirli feillərdən təsirsiz feil düzəldən şəkilçilər.

**13. Feilin növ kateqoriyası.** Növ kateqoriyası hərəkət, obyekt və subyekt arasındakı münasibətin qrammatik ifadəsi kimi. Qrammatika kitablarında feilin məna növlərinə münasibət. Növ kateqoriyası barədə fikirlər. Növ və təsirlilik kateqoriyasının qarşılıqlı əlaqəsi. [1 ]; [3 ]; [2 ]; [4 ].

**14. Feilin şəkilləri.** Azərbaycan dilçiliyində feilin şəkilləri problemi. Feil şəkilləri, onların modallıq ifadə etməsi. Feilin zaman kateqoriyası və zaman anlayışı. Feil zamanlarında məna keçidləri, bir-birinin mənasında işlənə bilməsi. Feilin şəxs kateqoriyası. Şəxs mənasının şəkilçisiz forması. Feilin davam və bacarıq şəkilləri. [1 ]; [3 ]; [2 ]; [4 ].

**15. Feilin təsriflənməyən formaları.** Feilin təsriflənməyən formalarına münasibət. Feilin təsriflənməyən formalarının ikili səciyyə daşıması.

Feili sifət. Qrammatik mənası, şəkilçiləri. Feili sifətdə feilə və sifətə aid xüsusiyyətlər.

Feili bağlama. Qrammatik mənası, şəkilçiləri. Feili bağlamada feilə və zərfə aid xüsusiyyətlər. Feili bağlamanın zərfə keçməsi faktları. Adverbiallaşma

Məsdər. Şəkilçisi. Məsdərin feilə və ismə aid xüsusiyyətləri. Məsdərin ismə keçməsi. Feili isim və məsdər. Feilin sintaktik funksiyası [1]; [2]; [3]; [4]; [5].

**16. Zərf.** Zərf hərəkətin əlamətini bildirən nitq hissəsi kimi. Zərfdüzəltmə yolları: leksik-semantik

(adverbiallaşma), morfoloji və sintaktik yollar. Zərfin digər nitq hissələri (isim, sifət, say, qoşma) ilə əlaqəsi. Başqa nitq hissələrinin zərfləşməsi. Zərfin sintaktik vəzifəsi. Zərf və zərflik məsələsi. [1 ]; [4 ]; [3 ]; [2 ].

**17. Zərfin mənaca növləri.** Zərfin təsnifatı. Tərzi-hərəkət zərfləri. Tərzi-hərəkət zətfləri və sifət. Zaman zərfləri. Onların zaman mənalı isimlərdən fərqləndirilməsi. Yer zərfləri. Onların yer mənalı isimlərdən fərqləndirilməsi. Kəmiyyət zərfləri. Kəmiyyət zərfləri və qeyri -müəyyən saylar.[1 ]; [2 ]; [3 ]; [4 ].

**18. Köməkçi nitq hissələri.** Köməkçi nitq hissələrinin müəyyənləşdirilməsində qrammatik meyar. Köməkçi nitq hissələrinin tərkibi. [1]; [2 ]; [ 3]; [4 ].

**19. Qoşma.** Qoşmaların sözlərdən sonra işlənərək müxtəlif məna bildirməsi. Qoşma və ismin halları. Qoşmaların qrammatik semantikası. Qoşmalarla idarə. [1]; [2 ]; [3 ]; [4].

**20. Bağlayıcı.** Bağlayıcı sözlər və cümlələr arasında qrammatik bağlılıq yaradan köməkçi nitq hissəsi kimi. Bağlayıcıların təsnifi. Quruluşuna görə bağlayıcıların təsnifi.

Sintaktik vəzifəsinə görə bağlayıcıların növləri: tabesizlik və tabelilik bağlayıcıları. Mənasına görə bağlayıcıların təsnifi. Bağlayıcı və bağlayıcı sözlərə münasibət. [1]; [2 ]; [3]; [4].

**21. Ədat.** Ədat sözlərə, söz birləşmələrinə və cümlələrə əlavə məna çaları verən, ya da cümlədə müxtəlif semantik münasibətlərin ifadəsinə xidmət edən köməkçi nitq hissəsi kimi. Ədatların quruluşu, sintaktik mövqeyi. Ədatın

mənaca növləri. Ədatların məna növlərinin təsnifatına müxtəlif münasibətlər.[1]; [2]; [3]; [4].

**22. Modal sözlər.** Modallıq kateqoriyası və modal sözlər. Modal sözlərin məna növləri. Qrammatika kitablarında modal sözlərə münasibət. Modal sözlərin cümlədə yeri və durğu işarələri [1 ]; [2 ]; [3]; [4 ].

**23. Xüsusi nitq hissəsi.** Yamsılamalar və nida.Formal və semantik əlamətləri**.**

Nidanın hiss-həyəcan ifadə etməsi. Nidanın işlənmə məqamları, cümlədə yeri. Nidada məna qrupları. Nitq qrupları [1 ]; [2 ]; [3 ].

**Tədris resursları: tədris avadanlıqları və əyani vasitələrin siyahısı**

"Müasir Azərbaycan dili" (Morfologiya)" kursunda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirələr, praktik məşğələlər, tələbələrin sərbəst işləri, kollokviumlar və kurs işi. Bundan başqa, aşağıdakı interaktiv formaların və tədris texnologiyalarının tətbiqi məqsədəuyğundur: portfolio- kursun problematikası üzrə materialların toplanması və qiymətləndirilməsi üçün; informasiya texnologiyaları- müxtəlif tətbiqi məsələlərin həlli üçün.

**Sərbəst (fərdi) işlərin mövzuları:**

1. Morfologiyanın obyekti və predmeti.
2. Nitq hissələrinin təsnifi prinsipləri.
3. İsim və onun qrammatik xüsusiyyətləri.
4. Sifət və onun qrammatik xüsusiyyətləri.
5. Say və onun qrammatik xüsusiyyətləri.

6. Əvəzlik və  qrammatik xüsusiyyətləri.
7. Feilin qrammatik xüsusiyyətləri.
8. Zərfin qrammatik xüsusiyyətləri.
9. Qoşma və bağlayıcıların təsnifi.
10. Ədat və modal sözlərin təsnifi.

## Tövsiyə edilən ədəbiyyat

**Əsas**

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı, “Şərq-Qərb”, 2007, 280 s.

2. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. (Dərslik). Bakı, “Elm və təhsil”, 2010, 398 s.

3. Müasir Azərbaycan dili. 3 cilddə, II c., Bakı, “Elm”, 1980, 509 s.

4. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2011, 368 s.

**Əlavə**

5. Axundov A. Feilin zamanları. Bakı, ADU nəşri,1961,  161 s.

6. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası (Dərslik). Bakı, “Nurlan”, 2007, 354 s.

7. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. Bakı, “Maarif”,1985, 408 s.

8. Mirzəyev H. Azərbaycan dilində feil. Bakı,” Maarif “, 2000, 320 s.

9. Zeynalov F.R. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı, “Maarif”, 1971, 312 s.

## İnternet resursları

https: //az. wikipedia.org

kayzen. az / blog /Azərbaycan dili / ... morfologiya...htm...

nedir.az/morfologiya

## İXTİSAS – 050101 “AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI MÜƏLLİMLİYİ
## FƏNN – İPF-B 10 “MÜASİR AZƏRBAYCAN DİLİ” SİNTAKSİS
## (III kurs)
## İZAHAT VƏRƏQİ

İPF – B10 – “Müasir Azərbaycan dili” fənninin “Sintaksis” bölməsi, «Azərbaycan dili və ədəbiyyat müəllimliyi» ixtisası olan tələbələrə III kursda 45 saat (mühazirə), 45 saat (məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur. Fənnin tədrisi işinin əsas növü mühazirə və praktik auditoriya məşğələləridir. Mühazirə və məşğələlərin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm icbari sərbəst işi də böyük əhəmiyyətə malikdir.

### Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri

Kursun məqsədi – Bakalavrın “Müasir Azərbaycan dili” fənninin sintaksis bölməsini öyrənməsi; “Müasir Azərbaycan dili” fənninin aşağı kurslarda keçilən fonetika, leksika, morfologiya ilə sintaksisin arasındakı əlaqələrin öyrənilməsi, bu sahədəki biliklərini sistemləşdirmək, sadə cümlə və onun üzvləri, sadə cümlənin struktur-semantik tipləri, mürəkkəb cümlə və onun növləri haqqındakı biliklərini möhkəmləndirmək və inkişaf etdirmək, sintaktik vahidlərin formalaşmasındakı vasitələri dəqiqləşdirmək, mətnin formalaşmasındakı fonetik, leksik, qrammatik vasitələrin rolunu öyrənmək və sistemləşdirmək. Bununla yanaşı, şifahi və yazılı nitqin qurulmasındakı sintaktik vasitələrin rolunu dərindən mənimsəmək və təkmilləşdirmək.

**Kursun vəzifələri**

- aşağı kurslarda qazanlımış biliklərin ümumiləşdirilməsi və nəzəri cəhətdən qavranılması əsasında sintaksisə aid biliyin formalaşması;
- Azərbaycan dilinin müasir vəziyyəti və hər bir bölmənin sintaksisin spesifikası haqqında təsəvvür yaratmaq;
- təhsil və elmi sistemdə işləmək üçün tələbələri nəzəri, praktik peşə bacarıqları ilə silahlandırmaq;
- tələbələrdə tədris və soraq ədəbiyyatı ilə müstəqil işləmək vərdişlərini formalaşdırmaq;
- tələbələrə söz birləşmələri ilə cümlənin fərqli və oxşar cəhətlərini seçmək bacarığını öyrətmək;
- cümlənin məqsəd və intonasiyaya görə növlərini qurmağı, bir-birindən seçməyi, formalaşdırmaq vərdişlərini təkmilləşdirmək;
- cümlədaxili vahidlərin – üzvlərin, qrammatik cəhətdən cümlə ilə bağlı olmayan üzvləri fərqləndirmək və yerli-yerində iistifadə edə bilmək bacarığını formalaşdırmaq;
- mürəkkəb cümləni sadə cümlədən ayırmaq, onun növlərini müəyyənləşdirmək, nəzəri və praktik qiymətləndirmək bacarığını formalaşdırmaq;
- mətnin təşkili, onun yaranmasında iştirak edən vasitələrin elmi-nəzəri əsasının mənimsənilməsi və təkmilləşdirilməsi;
- sintaktik vahidlərdən düzgün istifadə edərək şifahi və yazılı nitqin formalaşmasının əsaslarını mənimsəmək;
- gələcək Azərbaycan dili və ədəbiyyat müəllimlərinin komunikativ səriştəsini formalaşdırmaq.

**Fənnin tədris prosesində yeri**

İPF- B10 «Müasir Azərbaycan dili» (sintaksis) kursu aşağı kurslarda keçirilən fonetika, leksika və morfologiya fənləri ilə sıx əlaqəlidir. Bu kursların ibtidai bacarıq və vərdişlərini tələbələr orta məktəbdə əldə edirlər. Kursun tədrisi isə onların ibtidai biliklərinin nəzəri və praktik səviyyəsinin yüksəldilməsi, elmi biliklərin əsaslandırılması, sistemləşdirilməsi, dil hazırlığında çatışmayan cəhətləri öyrənməyə yönəlir.

Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:

- qrammatika və onun bölmələrini, sintaksisin tədqiqat obyektlərini və predmetini;
- söz birləşməsi, onun növlərini cümlə ilə oxşar, fərqli cəhətlərini, nominativ xüsusiyyətlərini;
- cümlədaxili vahidlər və onların xüsusiyyətlərini;
- sadə cümlənin məqsəd və intonasiyaya görə növlərini, struktur-semantik tiplərini;
- tabesiz və tabeli mürəkkəb cümlənin növlərini, bağlanma vasitələrini, xüsusiyyətlərini;
- mətn, sərhədləri, komponentlərinin bağlanmasındakı vasitələrin rolu və struktur xüsusiyyətlərini;
- öyrəndiklərini nəzəri və praktik cəhətdən əsaslandıraraq istifadə etməyi.

**Bacarmalıdır:**

- təhlilin bütün növlərini həyata keçirməyi;
- cümlələrin sintktik təhlilini aparmağı;
- cümlə üzvlərinin quruluşunu, ifadə vasitələrini, həmcins üzvləri ayırmağı;
- sadə cümlənin struktur-semantik tiplərini təyin etməyi və izah etməyi;
- tabesiz mürəkkəb cümləni həmcins üzvlü cümlədən ayırmağı, tabesiz mürəkkəb cümlənin bağlanma vasitələrini göstərməyi və izah etməyi;

- tabeli mürəkkəb cümlənin baş və budaq cümləsini təyin etməyi, bağlanma vasitələrini və növünü izah etməyi;
- aktual üzvlənməni və tema, rema ardıcıllığını təyin etməyi;
- qazanılmış nəzəri və praktik bilikləri ünsiyyət prosesində tətbiq etməyi;
- elmi ədəbiyyatla işləməyi, müasir audio, video və multimediya vasitələrindən istifadə etməyi;

**Yiyələnməlidir:**
- fənnin anlayış və kateqorial aparatına, tədris-metodiki və elmi ədəbiyyatla işləmək vərdişlərinə;
- müxtəlif elmi-nəzəri ədəbiyyatla işləməyi;
- müxtəlif tipli informasiyanın müstəqil şəkildə axtarışı, işlənib hazırlanması və istifadə vərdişlərinə;
- təhlil vərdişlərinə və müxtəlif situasiyalarda onları həyata keçirmək bacarığına.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | mühazirə | seminar |
| 1. | Qrammatikanın bölmələri. Sintaksisin tədqiqat obyekti və predmeti. Sintaksisin öyrənilmə mərhələləri. | 4 | 2 | 2 |
| 2. | Sözlər arasındakı məna və qrammatik əlaqələr. Tabesizlik və tabelilik əlaqəsi. | 4 | 2 | 2 |
| 3. | Söz birləşmələrinin dil sistemində yeri. Söz bir- | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | ləşmələrinin növləri. İsmi birləşmələr. | | | |
| 4. | Feili birləşmələr və onların növləri. | 4 | 2 | 2 |
| 5. | Cümlələrin məqsəd və intonasiyaya görə növləri. | 4 | 2 | 2 |
| 6. | Cümlə üzvləri, onların bölünmə prinsipləri. Baş üzvlər. | 4 | 2 | 2 |
| 7. | II dərəcəli üzvlər. Tamamlıq. Təyin | 4 | 2 | 2 |
| 8. | II dərəcəli üzvlər. Zərflik və onun məna növləri. | 4 | 2 | 2 |
| 9. | Həmcinslik anlayışı. Həmcins üzvlər. | 4 | 2 | 2 |
| 10. | Əlavə və xüsusiləşmələr. | 4 | 2 | 2 |
| 11. | Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. Xitab və ara sözlər. Cümlədə söz sırası. | 4 | 2 | 2 |
| 12. | Sadə cümlənin struktur-semantik tipləri. Söz-cümlələr. Üzvlənən sadə cümlələr. Təktərkibli cümlələr. | 4 | 2 | 2 |
| 13. | Cüttərkibli sadə cümlələr. Bütöv və yarımçıq cümlələr. Feili tərkibli sadə geniş cümlələr. | 4 | 2 | 2 |
| 14. | Mürəkkəb cümlə. Onun növləri. Tabesiz mürək- | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | kəb cümlənin məna əlaqələri. | | | |
| 15. | Tabesiz mürəkkəb cümlənin komponentlərini bağlayan vasitələr, komponentlərinin sırası, bağlayıcılı və bağlayıcısız tabesiz mürəkkəb cümlələr. | 4 | 2 | 2 |
| 16. | Tabeli mürəkkəb cümlə, baş və budaq cümlə. Tabeli mürəkkəb cümlənin komponentlərini bağlayan vasitələr. | 4 | 2 | 2 |
| 17. | Tabeli mürəkkəb cümlənin budaq cümlələrə görə təsnifi. Mübtəda, xəbər budaq cümlələri. | 4 | 2 | 2 |
| 18. | Tamamlıq, təyin budaq cümlələri. | 4 | 2 | 2 |
| 19. | Zərflik budaq cümlələri. Tərzi-hərəkət, zaman, yer, kəmiyyət budaq cümlələri. | 4 | 2 | 2 |
| 20. | Səbəb, məqsəd, nəticə, şərt, qarşılaşdırma budaq cümlələri. | 4 | 2 | 2 |
| 21. | Qarışıq tipli mürəkkəb cümlələr. Tabeli və tabesiz mürəkkəb cümlələr. | 4 | 2 | 2 |
| 22. | Sintaktik bütövlər. | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 23. | Vasitəli, vasitəsiz nitq. | 2 | 1 | 1 |
| | Cəmi: | 90 | 45 | 45 |

**Sintaktik əlaqələr**. Sözlər arasında məna və qrammatik əlaqələr. Tabesizlik əlaqəsi, bu əlaqədə olan tərəflərin başqa üzvlərlə məna və qrammatik münasibəti, işlənmə yeri.

Tabelilik əlaqəsi, bu əlaqədə olan tərəflərin qrammatik bərabərsizliyi, işlənmə dairəsi.

Tabelilik əlaqəsinin növləri /uzlaşma, idarə, yanaşma/, onların qrammatik əlamətləri, istifadə olunduğu sintaktik mövqelər, tabelilik əlaqəsində olan sözlərin sıralanması. [1], [2], [3], [4]

**Söz birləşməsi**. Söz birləşməsinin əsas xüsusiyyətləri, dil sistemində söz birləşmələrinin yeri. Söz birləşməsi və söz. Söz birləşməsi və cümlə. Söz birləşməsinin növləri. İsmi birləşmələr. Təyini söz birləşmələri. Ümumi cəhətləri, əmələgəlmə qaydaları, fərqləri, ifadə vasitələri. Təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr: şəkilçisiz, birinci tərəfi hal şəkilçili, hər iki tərəfi hal şəkilçili, qoşmalı ismi birləşmələr. [1], [2], [6]

**Feili birləşmələr**. Ad-feil tipli birləşmələr feili birləşmələrin əsası kimi. Tabe tərəflərinə görə feili birləşmələrin növləri: adlıq, təsirlik, yönlük, çıxışlıq hallı feili birləşmələr. Qoşmalı feili birləşmələr. [1], [2], [6]

**Cümlə**. Məqsəd və intonasiyaya görə cümlənin növləri. Nəqli, sual, əmr, nida cümlələri. [1], [2], [8]

**Cümlə üzvləri**. Baş üzvlər. Mübtəda, ifadə vasitələri, quruluşca növləri. Xəbər, morfoloji və sintaktik üsulla ifadəsi, quruluşca növləri. Cümlənin ikinci dərəcəli üzvləri. Tamamlıq, növləri, ifadə vasitələri, vasitəsiz və vasitəli tamamlıqlar, quruluşca növləri. Təyin, növləri, ifadə vasitələri, quruluşca növləri. [1], [2]

**Zərflik**. Zərfliyin mənaca növləri. Zərfliyin ifadə vasitələri, quruluşca növləri. [1], [2], [3], [8]

**Həmcins üzvlər**. Cümləüzvlərinin həmcinsliyi, həmcins üzvlərin bağlanması intonasiya və tabesizlik bağlayıcıları, həmcins üzvlərdə sıralanma, ümumləşdirici sözlər. Həmcins üzvlərdə ixtisarlar və durğu işarələri. [1], [2], [12], [8], [4]

**Əlavə**. Xüsusiləşən və xüsusiləşməyən əlavələr, paralel əlavələr. Xüsusiləşən əlavələrin quruluşca növləri. Cümlə üzvlərinin xüsusiləşməsi. Cümlə üzvlərinin sırası. [2], [1], [7], [12]

Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. Xitab, ifadə vasitələri. Ara sözlər, ara sözlərin məna növləri, ara söz birləşmələri. Ara cümlələr. [1], [9], [17], [10]

**Feili tərkiblər:** məsdər, feili sifət, feili bağlama tərkibləri. Feili tərkiblərdə budaq cümlələrin sintaktik sinonimliyi. [1], [2], [6], [15]

**Sadə cümlənin struktur-semantik tipləri.** Üzvlənən və üzvlənməyən sadə cümlə tipləri. Baş üzvlərin iştirakına görə sadə cümlənin növləri. Cüttərkibli cümlələr, təktərkibli cümlələr. İkinci dərəcəli üzvlərin iştirakına görə sadə cümlələrin növləri. Müxtəsər cüttərkibli və təktərkibli cümlələr. Geniş cüttərkibli və təktərkibli cümlələr. Bütöv və yarımçıq cümlələr. Üzvlənməyən cümlələr. Söz-cümlə, üzvlənməyən cümlələrin bir növü kimi. [1], [2], [6], [8], [14]

**Təktərkibli cümlələr.** Xəbər əsasında formalaşan təktərkibli cümlələr. Şəxssiz, qeyri-müəyyən şəxsli, ümumi şəxsli cümlələr. Mübtəda əsasında formalaşan təktərkibli cümlələr. Adlıq cümlə. [1], [2], [3], [4], [8]

**Mürəkkəb cümlə.** Mürəkkəb cümlələrin növləri. [1], [4], [10], [14]

**Tabesiz mürəkkəb cümlə.** Onların tərkib hissələrini bağlayan vasitələr. Tabesiz mürəkkəb cümlədə məna əlaqələri: sadalama, aydınlaşdırma, qarşılaşdırma, səbəb-nəticə, bölüşdürmə, qoşulma. Ortaq üzvlü tabesiz mürəkkəb cümlələr. [1], [2], [11], [16]

**Tabeli mürəkkəb cümlə.** Baş və budaq cümlə. Tabeli mürəkkəb cümlələrin tərkib hissələrini bağlayan vasitələr. Budaq cümlə və feili tərkiblər, tabeli mürəkkəb cümlələrin budaq cümləyə görə təsnifı. [1], [5], [16]

Mübtəda budaq cümləsi, tipləri və baş cümləyə bağlanmasında iştirak edən vasitələr. Xəbər budaq cümləsi, tipləri. Bağlanma vasitələri. Tamamlıq budaq cümləsi, növləri, tipləri, strukturu, bağlanma xüsusiyyətləri. [1], [2], [4], [5]

Təyin budaq cümləsi, onun tipləri. Zaman budaq cümləsi, onun tipləri, bağlanma vasitələri. Tərzi - hərəkət budaq cümləsi, onun tipləri, bağlanma vasitələri. Yer budaq cümləsi, onun tipləri, bağlanma vasitələri. [1], [2], [5]

Kəmiyyət budaq cümləsi, tipləri, bağlanma vasitələri. Səbəb budaq cümləsi, tipləri, bağlanma vasitələri. Dərəcə budaq cümləsi. Nəticə budaq cümləsi, onun səbəb budaq cümləsi ilə oxşar və fərqli cəhətləri. Şərt budaq cümləsi, xüsusiyyətləri, işlənmə yerinə və bağlanma vasitələrinə görə növləri, real və irreal şərt budaq cümlələri. Məqsəd budaq cümləsi, onun səbəb budaq cümləsi ilə oxşar və fərqli cəhətləri. Qarşılaşdırma budaq cümləsi. Ziddiyyətli, müqayisəli, güzəştli, fərqləndirici, qarşılaşdırma budaq cümlələri. [1], [2], [5], [16], [18]

Qoşulma budaq cümləsi, onun baş cümləyə bağlanmasında istifadə olunan vasitələr. Baş cümləyə qiymət və əlavə məlumat verən qoşulma budaq cümlələri. [1], [2], [4]

Qarışıq tipli mürəkkəb cümlələr, onların növləri. Qarışıq tipli tabesiz mürəkkəb cümlələr, onların strukturu,

bağlanma vasitələri. Qarışıq tipli tabeli mürəkkəb cümlə, bağlanma vasitələri, quruluşu, bu cümlələrin baş cümləyə bağlanmasında istifadə edilən vasitələr. Ardıcıl, paralel, ardıcıl-paralel birləşən qarışıq tipli tabeli mürəkkəb cümlələr. [1], [5], [13], [16], [18]

**Vasitəsiz və vasitəli nitq**. Özdə nitqi və onun verilmə üsulları vasitəsiz nitq, vasitəli nitq. Vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi, vasitəsiz və vasitəli nitqdə istifadə edilən durğu işarələri. [2], [4], [10]

**Mürəkkəb sintaktik bütovlər**. Mətnin təşkilində mühüm rol oynayan vasitələr, əlaqə üsulları, mətndə daxili qrammatik əlaqə və leksik vahidlərdən istifadə. Paralel və zəncirvarı əlaqəli komponentlər. [1], [2], [15]

**Cümlənin aktual üzvlənməsi**. Aktual üzvlənmə komponentləri: tema, rema. [1], [2]

## Tədris texnologiyaları, təlimin interaktiv formaları

Bu kursda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirə, praktik məşğələlər, tələbələrin sərbəst işləri və kollokviumlar. Bundan başqa aşağıdakı interaktiv formaların və tədris texnologiyalarının tətbiqi məqsədə uyğundur:

portfolio – kursun problematikası üzrə materialların toplanması və qiymətləndirilməsi üçün;

informasiya texnologiyaları – müxtəlif tətbiqi məsələlərin həlli üçün.

## Sərbəst (fərdi) işlərin mövzuları

1. Sintaksisin obyekti, predmeti, öyrənilməsi mərhələləri.
2. Sintaktik əlaqələr. Tabesizlik və tabelilik əlaqəsi.
3. Söz birləşmələri. Onun növləri.

4. Cümlə. Məqsəd və intonasiyaya görə növləri.
5. Sadə cümlənin üzvləri. Baş üzvlər.
6. İkinci dərəcəli üzvlər.
7. Əlavə, xüsusiləşmə.
8. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər.
9. Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlə.
10. Tabeli mürəkkəb cümlə.

**Tövsiyə edilən ədəbiyyat:**

**Əsas**

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. "Şərq-Qərb", Bakı, 2007, 422s.
2. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Azərtədrisnəşr, Bakı, 1974, 420s.
3. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Aspoliqraf LTD MMC, Bakı, 2004, 494s.

**Əlavə**

4. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. "Maarif", Bakı,1998, 281s.
5. Abdullayev K.M., Məmmədov A.Y., Musayev M.M. və b. Azərbaycan dilində sintaktik bütövlər. "Maarif", Bakı,2012, 605s.
6. Azərbaycan dilinin qrammatikası. II hissə. Azərb. EA nəş., Bakı, 1959, 267s.
7. Azərbaycan dilinin qrammatikası. Azərbaycan EA nəş., Bakı, 1951, 267s.
8. Bayramov H. Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cürmələr. Azərbaycan EA nəş., Bakı, 1960,

126s.
9. Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Azərbaycan EA nəş., Bakı, 1963, 223s.
10. Cəlilov F. Mürəkkəb cümlə sintaksisi. «Maarif», Bakı, 1983, 115s.
11. Hacıyev T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı, 2002, 304s.
12. Həsənova E. Mürəkkəb cümlələrin polipredikativliyi. ADU nəşriyyatı, Bakı, 1986, 82s.
13. Müasir Azərbaycan dili, III cild. Sintaksis. "Elm", Bakı, 1981, 442s.
14. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı Universiteti, Bakı, 1992, 408s.
15. Seyidov Y. Azərbaycan ədəbi dilində əlavə sözlər və əlavə cümlələr. Bakı, 2000, 168s.
16. Seyidov Y. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. Bakı, 1958, 72s.
17. Şahbazova Z. Müasir Azərbaycan dilində ara söz və ara söz birləşmələri. ADU, Bakı,1985, 91s.
18. Tağızadə Z. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı, 1961, 156s.